**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Фаршад Шахбаз оглу Пур Уфуги**

# ВЛИЯНИЕ СОЦИАЛЬНОЙ ПЕРЦЕПЦИИ НА СЕМЕЙНО-БРАЧНЫЕ ОТНОШЕНИЯ В МОЛОДЫХ СЕМЬЯХ

**6114.01 - Социальная психология**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**БАКУ – 2013**

AZƏRBAYCAN RESPUBLİ KASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**FƏRŞAD ŞAHBAZ OĞLU PUR ÜFÜQİ**

# GƏNC AİLƏLƏRDƏ SOSİAL PERSEPSİYANIN AİLƏ-NİGAH MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

**6114.01 - Sosial psixologiya**

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** pedaqogika üzrə elmlər doktoru, professor
**Sərdar Musa oğlu Quliyev**

**Rəsmi opponentlər:** Psixologiya üzrə elmlər doktoru, professor
**Ərəstun Təriş oğlu Baxşəliyev**

Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Nurəngiz Tofiq qızı Rzayeva**

**Aparıcı müəssisə:** Azərbaycan Respublikası Prezidenti
yanında

Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və sosial psixologiya kafedrası

Müdafiə "__24__" _05_" 2013-cü il saat "___"-da Bakı Dövlət Universitetinin nəzdində yaradılmış FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23, II korpus, otaq 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "______" "_________" 2013- cü ildə göndərilib.

**FD. 02.014 Dissertasiya** **psixologiya üzrə fəlsəfə doktoru**
**şurasının elmi katibi** **Rəşid Vəkil oğlu Cabbarov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Ailə cəmiyyətin özəyi, onun inkişafının əsas atributlarından biridir. Ailədə yaranan problemlər bütün dövrlərdə cəmiyyətin diqqət mərkəzində olmuş, onun həll edilməsi yolları axtarılmışdır. Ona görə də ailə-nigah münasibətləri, ailədaxili konfliktlər həmişə tədqiqat obyektinə çevrilmiş, müxtəlif istiqamətlərdən öyrənilmişdir. Hər bir ailənin monolitliyi və uzunömürlülüyü öz mənbəyini gənclik dövründə ailəyə olan münasibətdən, onun cəmiyyətdəki mövqeyindən, nigaha hazırlığından və gənc ailələrin üzvlərinin bir-birini adekvat qavraması və qarşılıqlı hörmətdən götürür.

Müasir dövrdə ailədaxili münasibətlərdə baş verən konfliktlər, boşanma halları, eləcə də ailənin etnik-psixoloji keyfiyyətlərinin və milli mentalitetinin deformasiyaya uğraması cəmiyyət üçün həyəcan siqnalı verməkdədir. Belə halların yaranmasında bir sıra amillərin rolu müəyyənləşdirilsə də, cəmiyyətdə mövcud olan sosial persepsiyanın ailə-nigah münasibətlərinə təsiri demək olar ki, sistemli araşdırılmamışdır.

Gənc ailələrdə sosial persepsiyanın ailə-nigah münasibətlərinə təsirinin öyrənilməsi bir neçə cəhətdən xüsusi aktuallıq kəsb edir.

Əvvəla, müasir dövrdə gənc ailələrin dünyagörüşünün, sərvət meyllərinin, cəmiyyətə baxış tərzinin dəyişməsi onun yeni prizmadan tədqiqini zəruri edir. Belə ki, bu günün ailəsi 20-30 il bundan əvvəlki ailələrdən köklü şəkildə fərqlənir. Cəmiyyətin dinamikliyi fonunda, onun bir hissəsi olan ailənin münasibətlər sistemində ortaya çıxan problemlərin xarakteri dəyişmişdir. Bu problemlərin sosial-psixoloji mexanizminin və qanunauyğunluqlarının öyrənilməsi olduqca böyük əhəmiyyət kəsb edir.

İkincisi, yeni sosial şərait, ölkələr arasında inteqrasiya prosesinin güclənməsi, əvvəllər mövcud olan etalon və stereotipləri arxa plana sıxışdırmış, yeni dəyərlər sistemi yaratmışdır ki, bu da gənc ailələrdə sosial persepsiya prosesinin formalaşmasının istiqamətlərini dəyişmişdir. Bu baxımdan ailə-nigah münasibətlərində sosial persepsiyanın yarada biləcəyi müsbət və mənfi hallar öyrənilməlidir.

Üçüncüsü, insanların bir-birini qavramasından qaynaqlanan sosial persepsiyanın yeni fonda təzahürü ailə-nigah münasibətlərindən yan keçə bilməz. Bu baxımdan sosial persepsiyanın psixoloji mahiyyəti, yeni şəraitdə təzahür xüsusiyyətləri öyrənilməli və onun ailə-

nigah münasibətlərinə təsir dərəcəsi açıqlanmalıdır.

Nəzərə almaq lazımdır ki, ailə münasibətləriində sosial persepsiya müxtəlif aspektlərdə öyrənilsə də, məhz sosial-psixoloji aspektdə sistemli, milli-etnik zəminə uyğun tədqiq edilməmiş, etnik-milli xüsusiyyətləri aydınlaşdırılmamışdır. Bütün bunları nəzərə alıb «Gənc ailələrdə sosial persepsiyanın ailə-nigah münasibətlərinə təsiri» mövzusunu tədqiqat obyekti kimi seçməyi məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi**. Problemin öyrənilməsinin müasir vəziyyətinə nəzər saldıqda görünür ki, ailə və gənc ailə problemi müxtəlif istiqamətlərdən öyrənilmişdir. Onları aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Psixoloji aspekt;
2. Pedaqoji aspekt;
3. Etnik-psixoloji aspekt;
4. Hüquqi və tibbi aspekt;

Psixoloji aspektdə ailədaxili konfliktlərin yaranması, ailənin tipi, onun formalaşmasına təsir göstərən amillər tədqiq edilmiş, ailə münasibətlərində yaranan münaqişələrin psixoloji səbəbləri araşdırılmışdır (B.Əliyev, Ə.Bayramov, Ə.Əlizadə, İ.Allahverdiyeva, K.Şiriyeva, Q. Əzimli, R. Əliyev, İ.Səfəvi, P.Pirani, A.Obozov, A.Koçpev, A.Zaxarova, T.Mişinoy və başqaları). Bu tədqiqatlarda ailənin formalaşmasının, ailə həyatına hazırlığın psixoloji mexanizmlərinin təhlilinə çalışılmışdır.

Gənc ailələrdə sosial persepsiyanın sosial-psixoloji məsələləri AMEA-nın müxbir üzvü, professor B.H.Əliyevin tədqiqatlarında geniş şəkildə öz əksini tapmışdır. Olduqca dəyərli olan bu tədqiqat işlərində, ailənin sağlamlığının cəmiyyətin sağlamlığı ilə identifikasiya edilməsi olduqca ciddi əhəmiyyətə malik bir fakt kimi vurğulanır.

Pedaqoji yönümdə aparılmış tədqiqatlarda isə ailənin formalaşmasında şəxsiyyətin rolu, onun tərbiyəsinin pedaqoji şərtləri, mənəvi idealın təşəkkülünün pedaqoji zəmini, həmçinin ailənin etikası, onun üzvlərində məsuliyyət hissinin inkişaf etdirilməsinin müxtəlif cəhətləri öyrənilmişdir (S.Quliyev, H.Əlizadə, A.Abbasov, N.Muxtarova, Ə.Həşimov, M.Kazımova, Ə.Ağayev, İ.Süleymanova, M.Rəşidpur, M.Fərcad, X.Fətəliyev, Y.Azarov Z.Qrebnikov, A.Novikov, E.Qruzdeva , K.Çertixino və başqaları).

Ailənin etnopsixoloji cəhətləri, onun etnik özünəməxsusluğu, ayrı-ayrı etnoslar arasındakı milli fərqlər, stereotip və yönümlər

B.Əliyev, Ə.Bayramov, Ə.Əlizadə, D.Mayers, Ş.Ağayev, M.Məhərrəmov, E.Qumiliyov və başqaları tərəfindən tədqiq edilmişdir.

Ailə problemlərinin hüquqi əsasları, hüquqşünaslar tərəfindən də işlənmiş və ailənin münasibətlərini tənzimləyən hüquqi aktlar və normativlərin tətbiqinin müsbət cəhətləri əsaslandırılmışdır. Eləcə də, tibbi baxımdan da ailə planlaşdırılması, ailənin sağlamlığı, ailədə baş verən konfliktlərin yaratdığı psixoloji və psixosomatik travmalar tədqiq edilmişdir (Z.Freyd, E.From, K.Xorni, E.Q.Eydimiller, V.V.Yustskiy, V.D. Karvasarskiy, G.V. Vudaker, E.S.Alaşina, V.D.Voykiy və başqaları). Bütün bunlarla yanaşı gənc ailələrdə sosial persepsiya və ailə-nigah münasibətlərinin tədqiqi konkret tədqiqat obyekti olmamışdır. Qeyd etdiyimiz bütün bu məsələlər mövzunun bir daha aktual olduğunu sübut edir.

**Tədqiqatın obyekti** gənc ailələrdə sosial persepsiyanın təzahürünün psixoloji məsələləridir.

**Tədqiqatın predmeti** gənc ailələrdə sosial persepsiyanın ailə-nigah münasibətlərinə təsirinin öyrənilməsidir.

**Tədqiqatın məqsədi**. Aparılmış tədqiqatda başlıca məqsəd sosial persepsiyanın qanunauyğunluqlarını müəyyən etmək, bilavasitə sosial persepsiyanın təsiri fonunda ailə-nigah münasibətlərində yaranan problemlərin həlli yollarının tapılması, eləcə də gənc ailələrdə nigaha hazırlığa təsir göstərən amillərin sistemləşdirilməsi olmuşdur.

**Tədqiqatın fərziyyəsi.** Gənc ailələrdə sosial-persepsiyanın ailə-nigah münasibətlərinə təsir dərəcəsi bir sıra amillərlə yanaşı gənclərin dünyagörüşü və nigah haqqında təsəvvürlərindən, onların təhsil səviyyəsindən, mövcud sosial mövqeyindən və iqtisadi vəziyyətindən asılıdır.

Əsas fəziyyəyə uyğun olraq əlavə bir neçə fərziyyə də götürülmüşdür:

-Gənc ailələrdə sosial persepsiyanın ailə-nigah münasibətlərinə təsiri cəmiyyətdə mövcud olan, etnik stereotip, adət və ənənələr ailənin həyatında tutduğu mövqedən də asılıdır.

-Etnik yönüm, etalon və nümunələr, eləcə də kişilik və qadınlıq haqqında təsəvvürlər, cəmiyyətin iqtisadi həyatı, ailənin maddi durumu, ailə üzvlərinin psixoloji vəziyyəti və s. də gənc ailələrdə ailə-nigah münasibətlərinə hərtərəfli təsir göstərir.

**Tədqiqatın vəzifələri**. Tədqiqatda qarşıya qoyulmuş məqsədə nail olmaq üçün bir sıra vəzifələr müəyyən edilmişdir. Onları aşağıdakı

kimi qruplaşdırmaq olar:

1. Gənc ailə anlayışının psixoloji məzmununun müəyyən edilməsi və bu problemə həsr edilmiş tədqiqatların müəyyən kriteriyalar əsasında qruplaşdırılması;

2. Tədqiqat prosesinin aparılmasına kömək edən əsas mülahizə və prinsiplərin müəyyənləşdirilməsi, gənc ailələrdə yaranan sosial-psixoloji konfliktlərin səbəblərinin ayırd edilməsi;

3. Sosial persepsiya anlayışının psixoloji mahiyyətinin açıqlanması, onun gənc ailələrin ailə-nigah münasibətlərinə təsirinin sosial-psixoloji aspektlərinin aydınlaşdırılması;

4. Gənc ailələrdə ailə münasibətlərinin formalaşmasına təsir göstərən amillərin dəqiqləşdirilməsi, ailənin monolitliyini təmin edən faktların üzə çıxarılması;

5. Ailə konfliktlərinin aradan qaldırılması üçün zəruri olan yol və vasitələrin, tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işində ilk dəfə olaraq fərqli etnik zəmində gənc ailələrdə sosial persepsiyanın ailə-nigah münasibətlərinə təsirinin sosial-psixoloji məsələləri tədqiqat obyekti olmuşdur. Tədqiqat göstərdi ki, İran gənclərinin evlənmə barəsində fikirləri bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Onların bir-birini anlaması və qavraması prosesində sosial stereotiplərin rolu böyükdür və xarici simanın qavranılması heç də birinci yeri tutmur. Burada təhsil səviyyəsi, dünyagörüş və maddi imkan əsas yerlərdən birini tutur.

Bununla yanaşı bu tədqiqat işində:

-Gənc ailənin üzvlərinin müasir dövrdə bir-birini qavramasının və anlamasının sosial-psixoloji məsələləri ayırd edilmiş, mövcud problem etnik-psixoloji xüsusiyyətlərin nəzərə alınması konteksindən araşdırılmış;

-Gənc ailələrin bir-birini adekvat qavramasında və başa düşməsində ortaya çıxan problemlərin aradan qaldırılmasının yol və vasitələri müəyyən edilmiş, zəruri tədbirlərin həyata keçirilməsinin verə biləcəyi müsbət nəticələr göstərilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

-Gənc ailələrdə sosial persepsiyanın ailə-nigah münasibətlərinə təsiri ailənin mövcud olduğu sosial şəraitin tələbləri, ailə tipinin modeli, sosial münasibətlərdəki dəyişikliklər və mümkün neqativ hallar, ailədə və iş yerindəki xoşagəlməzliklər, demoqrafik dəyişikliklər, etnik-psixoloji xüsusiyyətlər, bu və ya digər ailə üzvünün özü haqqın-

dakı təsəvvürləri və cəmiyyətə münasibəti ilə şərtlənmişdir;

-Sosial persepsiyanın ailə-nigah münasibətlərindəki rolu cəmiyyətdə mövcud olan etalon və stereotiplərdən, adət-ənənələrdən, milli mentalitetin regional xarakterindən, eləcə də gənc ailə üzvləri arasındakı münasibətlərin əsaslandığı təsəvvürlərin yönümündən asılıdır;

-Gənc ailələrdə nigahdan əvvəlki münasibətlər və onun inkişaf dinamikasının neqativ yönümdə təzahürü nigahdan sonrakı şəraitdə sosial maskanın dəf edilməsi fonunda gənclərin bir-birini adekvat qavrayıb qiymətləndirə bilməməsinin nəticəsidir.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Tədiqqatın metodoloji əsasları şəxsiyyətin və onun münasibətlər sisteminin mahiyyəti haqqında ümumfəlsəfi müddəalar və müasir sosial psixologiyada ailədaxili münasibətlərin, həmçinin, sosial persepsiyanın bu münasibətlərə təsirinin mexanizmləri ilə bağlı elmi müddəalar və prinsiplər təşkil edir. Tədqiqatda müşahidə, eksperiment, anket sorğusu və intervüdən istifadə edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Gənc ailə problemi və ailə-nigah münasibətlərinin formalaşması mürəkkəb sosial hadisə olduğuna görə, əldə olunmuş nəzəri müddəalar sosial psixologiyanı, ailə psixologiyasını yeni elmi biliklərlə zənginləşdirir, sosial psixologiyada yeni elmi istiqamətlərin yaranması üçün zəmin hazırlayır. Bununla yanaşı empirik faktlar və ailə nümunələri əsasında eksperimentdən alınmış nəticələr müəyyən ailə və şəxsiyyətlərarası münasibətlərin tənzim olunmasında psixoloji məsləhətlər vermək baxımından ciddi elmi nəzəri əhəmiyyət kəsb edir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatdan əldə olunan nəticələr ailə münasibətlərinin tənzim olunmasında, nigaha daxil olma zamanı yalnış münasibətlərin qurulmasına yönəlmiş problemlərin aradan qaldırılması ilə məşğul olan müəssisələrin işində, həmçinin sosial psixologiya, ümumi psixologiya və ailə psixologiyası fənlərinin və seçmə fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası**. Tədqiqatın nəticələri Bakı Dövlət Universitetinin psixologiya kafedrasının seminarlarında və müxtəlif konfranslarda müzakirə edilmişdir. Eyni zamanda dissertasiya işinin əsas nəticələri müəllifin müvafiq məqalə və tezislərində öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu**. Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti göstərilir, fərziyyə formulə edilir, tədqiqatın metodoloji əsasları müəyyənləşdirilir. Həmçinin tədqiqatın nəzəri və praktik əhəmiyyəti göstərilir.

Dissertasiyanın «**Ailə-nigah münasibətləri və gənc ailə bu münasibətlər konteksində**» adlanan 1 fəsli iki yarımfəsildən ibarətdir. Burada ailə-nigah münasibətləri və onun tədqiqi istiqamətləri, gənc ailənin sosial-psixoloji xüsusiyyətləri təhlil edilir.

I fəslin **«Ailə-nigah münasibətləri və onun tədqiqi istiqamətləri»** adlanan birinci yarımfəslində sosial-psixoloji tədqiqatlar sistemləşdirilmişdir.

Bu tədqiqatlarda sosial persepsiya və ya insanların bir-birini qavramasında iki cəhət fiziki simanın və sosial simanın qavranılması əsas götürülür. Şəxsiyyətlərarası qavrayış istiqamətində ər-arvad münasibətlərinin öyrənilməsi göstərir ki, fərdlərin izdivacdan razılığı və öz keyfiyyətlərini yüksək qiymətləndirmə, öz tərəf-müqabilinin keyfiyyətlərinə daha mülayim münasibətdə təzahür edir.

Ailə-nigah münasibətlərinin tədqiqinin "identifikasiya" istiqaməti bilavasitə psixoanalizin adı ilə bağlıdır. Bu nəzəriyyənin əsasını Z.Freyd qoymuş və A.Freyd tərəfindən davam etdirilmişdir. Bu nəzəriyyənin mahiyyətinə əsasən insanlar nigaha daxil olarkən özlərinə ana və atalarına uyğun şəxslər seçirlər. Məsələn, kişilər hesab edirlər ki, qadınlar onların analarını xatırladan rollar oynamalıdırlar. Bu onlarda qeyri-şüuri baş verir. Yəni qadın kişinin qayğısına qalmalı, onu müdafiə etməli və emosional baxımdan onu təmin etməlidir. Qadınlar da uyğun olaraq qeyri-şüuri öz ərlərində atalarına məxsus cəhətlər axtarır, ona bir müdafiə kompleksi kimi yanaşırlar. Bu yarımfəsildə həmçinin ailə münasibətlərində tələbatlar nəzəriyyəsi də təhlil edilmişdir.

Ailə-nigah məsələlərinin rol nəzəriyyəsi əsasında ən təkmilləşmiş konsepsiyasını T.Parsons və R.Beyler irəli sürmüşlər. Müəlliflərin istifadə etdiyi əsas anlayış insan davranışının motivasiya vahidi kimi nəzərdən keçirilən "rol gözləməsi" anlayışıdır. Digər hallarda olduğu kimi ailədə də rol gözləmələri ikitərəfli xarakter daşıyır: hər hansı ailə üzvü digər ailə üzvlərindən onların öz rollarına uyğun davranış

tərzi gözləyir. Müvafiq situasiyada qadının özünü tutaq ki, ana kimi, kişinin ata kimi aparacağını gözləyir. Əgər ata və ya ana və yaxud ər və arvad özlərini ətrafdakı adamların gözlədiyi kimi aparmırsa onlar arasında müxtəlif formalarda konfliktlər yaranır.

I fəslin **«Gənc ailə və onun sosial-psixoloji xüsusiyyətləri»** adlanan ikinci yarımfəslində gənc ailənin monolitliyi, birgə həyat müddəti, ailə-nigah münasibətlərinin cəmiyyətin tələbləri səviyyəsində qurulması və s. kimi məsələlər diqqət mərkəzinə gətirilmişdir.Bu yarımfəsildə gənc ailənin sosial-psixoloji xüsusiyyətləri, o cümlədən gənc ailənin hansı yönümdə formalaşması problemləri, ailədaxili konfliktlər və onun yaratdığı fəsadlar da araşdırılmışdır.

Nəzərə almaq lazımdır ki, ailə həyatının ilk çağlarında oğlanın da, qızın da davranışında, rəftarında qəribə hallar olur. Əslində gənc ailə üçün bu təbii haldır. Psxioloji tədqiqatlardan məlumdur ki, insanlar bir-birinə bir gündə isinişmirlər. Onları bir-birinə alışmaq, bir-birini xarakerini götürmək üçün qaynayıb qarışmalıdırlar. Bu iş təmkin və səbr tələb edir. Bu yarmfəsildə qeyd olunan məsələlər sistemli təhlil olunur.

Dissertasiyanın «**Gənc ailələrdə ailə-nigah münasibətlərinin formalaşmasında sosial-psixoloji və etnopsixoloji amillərin rolu»** adlanan II fəsli üç yarımfəsildən ibarətdir.

II fəslin «**Gənc ailələrdə ailə-nigah münasibətlərinin formalaşmasına təsir göstərən amillər»** adlanan birinci yarımfəslində gənc ailələrdə ailə-nigah münasibətlərinin formalaşmasının səbəbləri, nigahdan öncə vəziyyət, düzgün qoyulmamış təməl və s. kimi halların ailə-nigah münasibətlərinə təsiri təhlil edilmişdir. Burada göstərilir ki, gənc ailələrdə ailə-nigah münasibətlərinin kökü onların nigahdan əvvəlki mərhələyə gedib çıxır ki, bu mərhələdə mövcud etalon və stereotiplərin çox böyük rolu vardır. Tədqiqatların ümumiləşdirilməsi göstərir ki, gənc ailələrdə ailə-nigah münasibətlərinin formalaşmasında sosial-psixoloji amillər, etnik mühit, regional cəhət və ailənin mövcud olduğu sosial-iqtisadi şərait mühüm rol oynayır. Bununla yanaşı bu yarımfəsildə gənc ailələrdə ailə-nigah münasibətlərinin formalaşmasının mərkəzi elementi olan məhəbbət fenomeni də təhlil edilmişdir. Faktlar göstərir ki, məhz təmiz, saf məhəbbət əsasında qurulmuş ailələrin nigahı daha uzun ömürlü və daha xoşbəxt olur.

II fəslin «**Gənc ailələrdə ortaya çıxan konfliktlər və onların aradan**

**qaldırılması yolları»** adlanan ikinci yarımfəslində gənc ailələrdə ailə-nigah münasibətlərinin düzgün formalaşdırılması, onların ailə həyatına hərtərəfli hazırlanması, eləcə də zəruri olan maddi resurslarla onların təmin edilməsi məsələləri təhlil olunur. Bu yarımfəsildə gənc ailələrdə ailədaxili konfliktlərin ortaya çıxmasına şərait yaradan və konfliktləri dərinləşdirən amillər təhlil edilmiş və onların aradan qaldırılması yolları göstərilmişdir. Aparılmış tədqiqatlar göstərir ki, qeyd edilən məsələləri araşdırarkən aşağıdakılara xüsusi fikir verilməlidir:

-Gənc ailələrdə baş verən konfliktlərə nəticəyə görə deyil, səbəb kontekstindən, onun genezisindən yanaşılmalıdır;

-Konfliktlərin aradan qaldırılması yolları ümumilikdə deyil, ailənin sosial-psixoloji, etno-regional xarakteri nəzərə alınmaqla həyata keçirilməlidir;

Aparılmış tədqiqatlar həqiqi çətinliklərlə onun ailə üzvləri tərəfindən dərk edilməsi arasında müəyən bir asılılıq olduğunu göstərmişdir. Çətinlik haqqında subyektiv təsəvvürlər, onun obyektivliyinə hərtərəfli təsir göstərir. Belə ki, bəzi ailələr çətinliyi həddindən artıq şişirtmək, onu «həll olunmaz problemə» çevirir, şəxsiyyətdaxili konfliktləri, şəxsiyyətlərarası konfliktə, ailə mühitinə çıxarır və bununla da ailədə problemlərin yaranmasına səbəb olurlar.

II fəslin üçüncü yarımfəsli «**Gənc ailələrdə sosial persepsiyanın formalaşmasının mexanizmləri»** adlanır. Bu yarımfəsildə gənc ailələrdə ailə-nigah münasibətlərinin formalaşmasına təsir göstərən müxtəlif amillər sisteminin, o cümlədən etnik amillərin araşdırılmasına cəhd göstərilmiş, sosial persepsiyanın gənc ailələrdə ailə-nigah münasibətlərinə göstərdiyi təsir və s. kimi məsələlər təhlil olunmuşdur. Burada qey olunur ki, müasir psixologiyada sosial persepsiya prosesləri müxtəlif istiqamətlərdə tədqiq olunur. İnsanlar dünyaya gəldiklərii andan bütün cəmiyyətlərdə müxtəlif formada mövcud olan gender rollarının qapalı dairəsinə düşürlər. Olduqca fərqli şəkildə tərbiyə olunur və özlərinə qarşı hər bir yerdə fərqli davranış hiss edirlər. İnsanın fəaliyyət göstərdiyi bütün sahələrdə gender fərqliliyi hiss olunur. Nə isə əldə etmək üçün gender fərqliliyinə nəzarət etmək labüddür. Buna riayət etməyənlər isə hələ uşaqlıq dövründə mənfi təsəvvürlərə malik olur və öz fəaliyyətini bu əsasda həyata keçirməyə çalışır. Nəticədə müasir cəmiyyətdə olan gənclərin davranışı müxtəlif, çox zaman

düzgün olmayan stereotiplər, yönəlişliklərlə yüklənmiş olur.Bu da, gənclərin davranışında şüursuz şəkildə özünü biruzə verir. Ailə qurmağa hazırlıq dövründə bu məsələlərə ciddi fikir verilməlidir.

Dissertasiyanın «**Gənclərdə sosial persepsiyanın ailə-nigah məsələlərinə təsirinin eksperimental-psixoloji tədqiqi**» adlanan III fəslində sosial persepsiyanın ailə-nigah məsələlərinə təsirinin eksperimental-psixoloji təhlili aparılır.

III fəslin «**Tədqiqatın təşkili və keçirilməsi**» adlanan birinci yarımfəslində tədqiqatın mərhələlər göstərilir. Birinci mərhələdə İranın Astara şəhərində Pəyam-enur universitetində hazırlıq kurslarında təhsil alan qız və oğlanlar iştirak etmişlər. Bu tədqiqatın statistik əhatəsi 400 nəfər təşkil etmişdir. Onlardan 200 nəfəri kişi, 200 nəfəri isə qadın olmuşdur.

İkinci mərhələdə Tədqiqat İranın Gilan rayon Universitetinin – müxtəlif fakültələrinin kurslarında aparılmışdır. Sorğuya əyani təhsil alan 1300-dək tələbə cəlb olunmuşdur.

Tədqiqatdan əldə olunmuş məlumatlar SPSS kompyuter proqramı və "One vay Anova, chi-square" təcrübəsinin meyarları ilə təhlil edilmişdir.

Dissertasiya işinin III fəslinin ikinci yarımfəsli «**Nəticələrin işlənməsi**» adlanır.

Bu yarımfəsildə gənclərin ailə –nigah münasibətlərinə təsir göstərən sosial stereotiplərin rolu aydınlaşdırılmışdır. Tədqiqatda sual-cavabları təhlil etmək məqsədilə təsviri statistik metodlardan (çoxluq, faiz, diaqram), habelə S.P.D.S.S. sistemindəki mühasibatdan fərziyyələri yoxlamaq üçün $X_2$ [K skoir] sınağından görünən və gözlənilən çoxluqlararası fərqlərin mənalı olması sınağından istifadə edilmişdir.

Ailə qurulmasında valideynlərin rolunun qiymətləndirilməsi

Cədvəl 3.1

| Cinsi | Tam razıyam | | Razıyam | | Bilmirəm | | Razı deyiləm | | Qətiyyən razı deyiləm | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | F | P | F | P | F | P | F | P | F | P | F | P |
| Qadın | 62 | 31 | 80 | 40 | 8 | 4 | 24 | 12 | 26 | 13 | 200 | 100 |
| Kişi | 82 | 41 | 70 | 35 | 0 | 0 | 20 | 10 | 28 | 14 | 200 | 100 |
| Cəm | 144 | 36 | 150 | 37.5 | 8 | 2 | 44 | 11 | 54 | 13.5 | 400 | 100 |

Ailə qurulumasında valideynlərin rolunun qiymətləndirilməsinin statistik göstəriciləri

Cədvəl 3.2

| (O-E)2 / E | (O-E)2 | (O-E) | E | O |
|---|---|---|---|---|
| 1.39 | 100 | -10 | 72 | 62 |
| 0.33 | 25 | 5 | 75 | 80 |
| 4.00 | 16 | 4 | 4 | 8 |
| 0.18 | 4 | 2 | 22 | 24 |
| 0.04 | 1 | -1 | 27 | 26 |
| 1.39 | 100 | 10 | 72 | 82 |
| 0.33 | 25 | -5 | 75 | 70 |
| 4.00 | 16 | -4 | 4 | 0 |
| 0.18 | 4 | -2 | 22 | 20 |
| 0.04 | 1 | 1 | 27 | 28 |
| 1.43 | | | | |

Məlumdur ki, həyat yoldaşının seçilməsində valideynlər mühüm yer tutur. Aparılmış sorğuda 15 sual kişi və qadınların baxışlarının müqayisə edilməsinə yönədilmişdir. Burada aşağıdakı nəticələr əldə edilmişdir. Bu nəticələr $X_2$ yoxlama düsturu ilə iki qrup arasında yoxlanılmışdır.

K=siniflərin sayı, o= görünən çoxluq. E= gözlənilən çoxluq, $X_2$= K×K, d,f= azadlıq dərəcəsi, E= $\frac{(sütunların\ cəmi)(sətirlərin\ cəmi)}{ümumi\ sayı}$,

$X_2$= e(o-e)2, D,f= K-1, D,F= 1, $X_2$=1,43

Cədvəllərin təhlilindən görünür ki, $X_2$ (1.43), 1 dərəcəli azadlıqla və (01,0) ehtimalında (6.63) $X_2$ cədvəlindən daha kiçikdir. Burada fərziyyə təsdiqlənir və 99% ilə nəticə almaq olar ki, görünən çoxluqlarla gözlənilən çoxluqlar arasında elə bir fərq yoxdur. Beləliklə, valideyn barəsində kişilər və qadınları fikirləri eynidir və görünən fərqlər təsadüfidür.

Həyat yoldaşı seçimində başqa mühüm məsələlərdən biri də başqa şəxslərin fikirlərinin əhəmiyyətli olmasıdır. Burada 15 sualı toplamaqla kişi və qadınların baxışları müqayisə edilmiş, sonra $X_2$ yoxlama düsturu vasitəsilə iki qrup arasında baxışların fərqli olması nəzərdən keçirilmişdir.

Ailə-nigah münasibətlərində əhəmiyyətli olan şəxslərin fikirlərinin qiymətləndirilməsi

Cədvəl 3.3

| Cinsi | Tam razıyam | | Razıyam | | Bilmirəm | | Razı deyiləm | | Qətiyyən razı deyiləm | | Cəm | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | F | P | F | P | F | P | F | P | F | P | F | P |
| Qadın | 70 | 35 | 70 | 35 | 8 | 4 | 28 | 14 | 24 | 12 | 200 | 100 |
| Kişi | 100 | 50 | 60 | 30 | 6 | 3 | 14 | 7 | 20 | 10 | 200 | 100 |
| Cəm | 170 | 43 | 130 | 33 | 14 | 3.5 | 42 | 11 | 44 | 11 | 400 | 100 |

Ailə- nigah münasibətlərində əhəmiyyətli olan şəxslərin qiymətləndirilməsinin statistik göstəriciləri

Cədvəl 3.4

| (O-E)2 / E | (O-E)2 | (O-E) | E | O |
|---|---|---|---|---|
| 2.65 | 225 | -15 | 85 | 70 |
| 0.38 | 25 | 5 | 65 | 70 |
| 0.14 | 1 | 1 | 7 | 8 |
| 2.33 | 49 | 7 | 21 | 28 |
| 0.18 | 4 | 2 | 22 | 24 |
| 2.65 | 225 | 15 | 85 | 100 |
| 0.38 | 25 | -5 | 65 | 60 |
| 0.14 | 1 | -1 | 7 | 6 |
| 2.33 | 49 | -7 | 21 | 14 |
| 0.18 | 4 | -2 | 22 | 20 |
| 2.83 | | | | |

Hesablanmış $X_2$ (1.83), 1 dərəcəli azadlıqla və (01,0) ehtimalında (6.63) $X_2$ cədvəlindən daha böyükdür. Burada (0) fərziyyəsi təsdiqlənir və 99% ilə nəticə almaq olar ki, görünən çoxluqlarla gözlənilən çoxluqlar arasında mənalı fərq yoxdur. Beləliklə, əhəmiyyətli şəxslər barəsində kişilər və qadınların fikirləri eynidir. Ailənin davam etməsində və evlənməkdə çox böyük rola malik olan ən mühüm mövzulardan biri ər-arvadın ətrafda cərəyan edən mühitin məsələləri barədə fikirləridir.

Ailə-nigah münasibətlərində maliyyə məsələlərinin qiymətləndirilməsi

Cədəvəl 3.5

| Cinsi | Tam razıyam | | Razıyam | | Bilmirəm | | Razı deyi-ləm | | Qətiyyən razı deyi-ləm | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mey-arlar | F | P | F | P | F | P | F | P | F | P | F | P |
| Qa-dın | 54 | 27 | 82 | 41 | 6 | 3 | 36 | 18 | 22 | 11 | 200 | 100 |
| Kişi | 144 | 72 | 48 | 24 | 2 | 1 | 6 | 3 | 0 | 0 | 200 | 100 |
| Cəm | 198 | 50 | 130 | 33 | 8 | 2 | 42 | 11 | 22 | 5.5 | 400 | 100 |

Hesablanmış $X_2$ (31.45), 1 dərəcəli azadlıqla və (01,0) ehtimalında (6.63) $X_2$ cədvəlindən daha böyükdür. Burada (0) fərziyyəsi təsdiqlənir və 99% ilə nəticə almaq olar ki görünən çoxluqlarla gözlənilən çoxluqlar arasında mənalı fərq vardır. Yəni 99% əminliklə demək olar ki, maliyyə mənbələri barəsində kişilərlə qadınlar arasında mənalı fərq var.

Ailələrdə ailə həyatını pozan ən mühüm amillərdən biri tərəflərin mənəvi və intim əlaqələridir. Bu əlaqələr hər nə qədər səmimi olsa başqa çətinliklərin həllinə də yardım edər. Bu bölmədə iştirakçılara 20 sual hazırlanmış və cavabların nəticələri aşağıdakı cədvəldə şərh edilmişdir.

Ailə-nigah münasibətlərində maliyyə məsələlərinin qiymətləndirilməsinin statistik göstəriciləri

Cədəvəl 3.6

| (O-E)2 / E | (O-E)2 | (O-E) | E | O |
|---|---|---|---|---|
| 20.45 | 2025 | -45 | 99 | 54 |
| 4.45 | 289 | 17 | 65 | 82 |
| 1.00 | 4 | 2 | 4 | 6 |
| 10.71 | 225 | 15 | 21 | 36 |
| 11.00 | 121 | 11 | 11 | 22 |
| 20.45 | 2025 | 45 | 99 | 144 |
| 4.45 | 289 | -17 | 65 | 48 |
| 1.00 | 4 | -2 | 4 | 2 |
| 10.71 | 225 | -15 | 21 | 6 |

| | | | | |
|---|---|---|---|---|
| 11.00 | 121 | -11 | 11 | 0 |
| | | | | |

Hesablanmış $X_2$ (16.12), 1 dərəcəli azadlıqla və (01,0) ehtimalında (6.63) $X_2$ cədvəlindən daha böyükdür. Burada (0) fərziyəsi təsdiqlənir və görünən çoxluqlarla gözlənilən çoxluqlar arasında mənalı fərq vardır. Müəyyən edildi ki, maliyyə mənbələri ailənin təşkilində böyük rola malikdir, həmçinin ailənin tələbatının ödənməsi maliyyə mənbələri və gəlirlərdən asılıdır. Məhz bu səbəbdən evlənmək ərəfəsində kişi və qadınların maliyyə məsələsinə baxışları çox mühümdür. Bu bölmədə 15 sualla iştirakçılar arasında sorğu keçirilmiş və nəticələr aşağıdakı cədvəldə təhlil edilmişdir.

Ailə -nigah münasibətlərində intim münasibətlərin qiymətləndirilməsi

Cədəvəl 3.7

| Cinsi | Tam razıyam | | Razıyam | | Bilmirəm | | Razı deyiləm | | Qətiyən razı deyiləm | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | F | P | F | P | F | P | F | P | F | P | F | P |
| Qadın | 44 | 22 | 54 | 27 | 12 | 6 | 56 | 28 | 34 | 17 | 200 | 100 |
| Kişi | 98 | 49 | 74 | 37 | 0 | 0 | 28 | 14 | 0 | 0 | 200 | 100 |
| Cəm | 142 | 36 | 128 | 32 | 12 | 3 | 84 | 21 | 34 | 8.5 | 400 | 100 |

Ailə-nigah münasibətlərində intim münasibətlərin qiymətləndirilməsinin statistik göstəriciləri

Cədəvəl 3.8

| (O-E)2 / E | (O-E)2 | (O-E) | E | O |
|---|---|---|---|---|
| 10.27 | 729 | -27 | 71 | 44 |
| 1.56 | 100 | -10 | 64 | 54 |
| 6.00 | 36 | 6 | 6 | 12 |
| 4.67 | 196 | 14 | 42 | 56 |
| 17.00 | 289 | 17 | 17 | 34 |
| 10.27 | 729 | 27 | 71 | 98 |
| 1.56 | 100 | 10 | 64 | 74 |
| 6.00 | 36 | -6 | 6 | 0 |

| | | | | |
|---|---|---|---|---|
| 4.67 | 196 | -14 | 42 | 28 |
| 17.00 | 289 | -17 | 17 | 0 |
| 27.27 | | | | |

Hesablanmış $X_2$ (27.27), 1 dərəcəli azadlıqla və (01,0) ehtimalında (6.63) $X_2$ cədvəlindən daha böyükdür. Burada (0) fərziyyəsi təsdiqlənir və 99% ilə nəticə almaq olar ki, görünən çoxluqlarla gözlənilən çoxluqlar arasında mənalı fərq vardır. Yəni 99% əminliklə demək olar ki, intim əlaqələr barəsində kişilərlə qadınlar arasında mənalı fərq var. Gənc ailələrin izdivac meyarları haqqında iştirakçılara 10 sual verilmiş və cavabların nəticələri aşağıdakı cədvəldə təhlil edilmişdir.

Ailə-nigah münasibətlərində izdivac münasibətlərinin qiymətləndirilməsi

Cədəvəl 3.9

| Cinsi | Tam razıyam | | Razıyam | | Bilmirəm | | Razı deyiləm | | Qətiyən razı deyiləm | | Cəm | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qadın | 56 | 28 | 80 | 40 | 6 | 3 | 28 | 14 | 30 | 15 | 200 | 100 |
| Kişi | 126 | 63 | 72 | 36 | 0 | 0 | 2 | 1 | 0 | 0 | 200 | 100 |
| Cəm | 182 | 46 | 152 | 38 | 6 | 1.5 | 30 | 7.5 | 30 | 7.5 | 400 | 100 |

Ailə-nigah münasibətlərində izdivacın statistik göstəriciləri

Cədəvəl 3.10

| (O-E)2 / E | (O-E)2 | (O-E) | E | O |
|---|---|---|---|---|
| 13.46 | 1225 | -35 | 91 | 56 |
| 0.21 | 16 | 4 | 76 | 80 |
| 3.00 | 9 | 3 | 3 | 6 |
| 11.27 | 169 | 13 | 15 | 28 |
| 15.00 | 225 | 15 | 15 | 30 |
| 13.46 | 1225 | 35 | 91 | 126 |
| 0.21 | 16 | -4 | 76 | 72 |
| 3.00 | 9 | -3 | 3 | 0 |
| 11.27 | 169 | -13 | 15 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 15.00 | 225 | -15 | 15 | 0 |
| 28.46 | | | | |

Hesablanmış $X_2$ (28.46), 1 dərəcəli azadlıqla və (01,0) ehtimalında (6.63) $X_2$ cədvəlindən daha böyükdür. Burada (0) fərziyəsi təsdiqlənir və 99% nəticə ilə görünən çoxluqlarla gözlənilən çoxluqlar arasında mənalı fərq vardır. Yəni 99% əminliklə demək olar ki, izdivac meyarları barəsində kişilərlə qadınlar arasında mənalı fərq var.

Apardığımız tədqiqatdan əldə olunmuş məlumatları ümumləşdirsək aşağıdakı nəticəyə gələ bilərik:

- Tədqiqat göstərdi ki, şəxsiyyətlərarası münasibətlərin, ailənin tipinin və ailə üzvlərinin gənclərdə sosial persepsiyanın formalaşmasına təsiri olduqca yüksəkdir;

-Tədqiqat göstərdi ki, təcrübə yerlərindən asılı olmayaraq bu üç amil - əqli yolla seçim, daxili tələbat və şəxsi qərarlar bütün cavanlar üçün əsas amil hesab olunur. Cavanlar həm də ailə həyatında özlərinin sərbəstliklərini də itirmək istəmirlər. Onların evlənmək haqqında təsəvvürlərində şəxsi seçim, valideyn seçimi və boşanmaya hazır olma ailə həyatında adi hal kimi qəbul olunur.

-Cavanların izdivac nümunələrinin mahiyyəti vilayətlərdə və cinslər üzrə bölgədə heç bir fərq etmədi. Kişilər, qadınlar, tələbələr, şagirdlər dörd bölgədə də eyni fikri ifadə etdilər. İzdivaca dair iki qisim suallara: ictimai mühit, ictimai mənşə hər dörd bölgənin tələbələri, qadın və kişiləri tərəfindən eyni cür anlaşıldığı məlum oldu;

- Aparılmış tədqiqatlar göstərir ki, gənc ailələrdə sosial persepsiyanın ailə nigah münasibətlərinə təsiri, ailənin mövcud olduğu sosial şəraitin tələblərindən, ailə tipinin modelindən, sosial münasibətlərdəki dəyişikliklərdən və baş verən demoqrafik dəyişikliklərdən, cəmiyyətin idarə üsulundan, etnik-psixoloji xüsusiyyətlərdən və sosial-iqtisadi şəraitin dinamikliyindən qaynaqlanır;

-Sosial persepsiyanın ailə nigahı münasibətlərində rolu cəmiyyətdə mövcud olan etalon və stereotiplərdən, adət-ənənələrdən, milli mentalitetdən, regional xarakterdən, eləcə də gənc ailə üzvləri arasında münasibətlərin hansı təsəvvürlər əsasında qurulmasından asılıdır;

- Gənc ər və arvadın uşaqlıq və gənclik dövründə rastlaşdığı mə-

qamlar, ailə vəziyyətinin hansı səviyyədə olması, onların böyüyüb başa çatdığı ailələrdə konfliktlərin olub-olmaması və s. kimi psixoloji məsələlər onların ailə haqqındakı təsəvvürlərinə təsir göstərir, ailə-nigah münasibətlərinin möhkəmliyini şərtləndirir;

-Təhlillər göstərir ki, gənc ailələrdə ailə-nigah münasibətlərində mühüm rol oynayan sosial-psixoloji amillər içərisində psixoloji uyuşma da mühüm yer tutur. Psixoloji uyuşmanın aşağı səviyyəsi ailədə baş verən konfliktlərin xarakterinə təsir göstərir və nigahda olan cütlüklərin bir-birinə adaptasiyasında problemlər yaranmasına gətirib çıxarır;

- Yaş fərqlərinin qadın və kişilər üçün müxtəlif olmasına baxmayaraq onların izdivacın hansı variantını seçmələri ümumi xarakter daşıyır və bu məsələdə artıq xüsusi seçimlər o qədər də xarakterik deyil. Bununla belə müəyyən edildi ki, nigah dəyərləri barəsində kişilərin malik olduğu təsəvvürlərlə qadınların malik olduğu təsəvvürlər arasında əhəmiyyətli dərəcədə fərqlər vardır.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır**:

1. Ailə-nigah münasibətləri və onun tədqiqi istiqamətləri // Psixologiya jurnalı, Bakı, 2008, №4, s.61-72
2. Gənc ailə və onun sosial-psixoloji xüsusiyyətləri // Psixologiya jurnalı, Bakı, 2009, №1, s.107-116
3. Конфликты возникающие в молодых семьях и пути их устранение // Вопросы гуманитарных наук, Москва, 2009, №4, с.188-193
4. Gənc ailələrdə ailə-nigah münasibətlərinin formalaşmasına təsir göstərən amillər // Psixologiya jurnalı, Bakı, 2010, №2, s.67-77
5. Gənc ailələrdə neqativ psixoloji iqlimin yaranmasında ailə konflitklərinin rolu // Psixologiya jurnalı, Bakı, 2010, №1, s.79-90
6. Роль социальной перцепции в формирование взаимоотношений между молодыми супругами // Вектор науки, Тольятти, 2012, №1(8), с.246-248
7. Роль гендерной ориентации во взаимном восприятии молодьх людей / Материалы III международной научно-практической конференции. Прага: 2013, с.80-83
8. Психологические механизмы формирования социальной пер-

цепции в молодых семьях в современный период / Материалы III международной научно-практической конференции.Прага: 2013, с.78-80

**Фаршад Шахбаз оглу Пур Уфуги**

## Влияние социальной перцепции на семейно-брачные отношения в молодых семьях

## РЕЗЮМЕ

Диссертационная работа посвящена исследованию одной из актуальных проблем современной психологической науки – влиянию социальной перцепции на семейно-брачные отношения в молодых семьях. При изучении причины внутрисемейных конфликтов, разводов и других подобных явлений хотя и определяется роль некоторых факторов, все же по-прежнему остается неизученным вопрос о влиянии социальной перцепции на семейно-брачные отношения. Как показывают факты, в ряде случаев прочность семьи во многом зависит от добрачных взаимоотношений, основу которых составляет взаимопонимание и адекватное взаимовосприятие партнеров, т.е. социальная перцепция. С этой точки зрения, проблема актуальна как с теоретической, так и с практической точки зрения. Диссертационная работа состоит из введения, трех глав, заключения, списка использованной литературы и приложений.

В первой главе диссертации - «Молодая семья в контексте семейно-брачных отношений» - определяются социально-психологические особенности молодой семьи, систематизируются социально-психологические исследования в данной области. Здесь проведится классификация научных работ в этом направлении, раскрывается социально-психологическая сущность понятий «семья» и «молодая семья», в контексте современности анализируются семейные проблемы.

Вторая часть диссертации называется «Роль социально-психологических и этнопсихологических факторов в формировании брачно-семейных отношений в молодой семье». Здесь анализируются причины формирования брачно-семейных отношений, а также влияние на эти отношения добрачной ситуации, неправильного воспитания и т.д. Обобщения показывают, что в этом процессе важную роль играют существующие в обществе эталоны и стереотипы, система социально-психологических факторов, этническая среда, социально-экономические условия и другие основополагающие критерии.

В третьей части диссертации «Экспериментально-психологическое исследование влияния социальной перцепции на семейно-брачные

отношения» проводится экспериментально-психологический анализ влияния этого важного фактора на вопросы брака и семьи. Здесь определяется, что социальная перцепция зависит существующих в обществе эталонов и стереотипов, традиций, национального менталитета, регионального характера, а также в зависимости от того, на основе каких представлений построены отношения между членами молодой семьи.

В заключение диссертации обобщаются основные выводы исследования.

**Pur Ufugi Farshad Shahbaz**

## Influence of Social Perception on Family and Marital Relationships in Young Families

### SUMMARY

The thesis examines one of the urgent problems of modern psychology - the influence of social perception on family and marital relationships in young families. In the study of the causes of family conflicts, divorce and other similar phenomena while determined by the role of some factors still remains unexplored question of the influence of social perception on family and marital relationships. As the facts, in some cases, the strength of the family depends on pre-marital relationships, which are based on mutual understanding and mutual acceptance adequate partners, ie social perception. From this point of view, the issue is relevant both from a theoretical and a practical point of view. The thesis consists of an introduction, three chapters, conclusion, bibliography and appendices.

In the first chapter of the thesis – “A young family in the context of family relations” – defined by the socio-psychological characteristics of young families are classified in social psychological research in this area. Here, the classification of publications in this field, revealed the essence of the socio-psychological concepts of "family" and "young family" in the context of our analysis of family problems.

The second chapter of the dissertation is called “The role of psycho-social and ethno-psychological factors in the formation of marriage and family relationships in a young family”. It explores the reasons for the formation of marriage and family relations, as well as the impact on the relationship premarital situation, wrong education, etc. Generalizations show that in this process play an important role in community standards and stereotypes, the system of social and psychological factors, ethnic environment, socio-economic conditions, and other fundamental criteria.

In the third chapter of the thesis “Experimental study of the psychological effects of social perception on family and marital relationships” conducted an experimental analysis of the psychological impact of this important factor on the issues of marriage and family. It is determined that the social perception in society depends on the standards and stereotypes, traditions, national mentality, regional issues, and also depending on whether the representations are built based on what the relationship between the members of a young family.

In conclusion, the thesis summarizes the main conclusions of the study.

Sifariş № 547; tiraj 100
«MBM» nəşriyyatının mətbəəsində
çap olunmuşdur